# Duyuqlar



Bəhmən SULTANLI

**D115. Düşmən dəhlizi**

***Ermənıyə “Laçın Dəhlizi, Erməni Dəhlizi” verilməsi ağılsızlıq tanıdıcısı adlandırılar. Bu, Laçının itirilməsi vasitəsilə erməninin gerçək şirniklənmə prosesinə təkan verər. Bundan sonra erməninin başqa iştahlarının üzə çıxması prosesini bir daha gücləndirər. Erməninin Qazaxdan, Tovuzdan, Gədəbəydən “Erməni Dəhlizləri” tələb etməsi ilə sonuclanar. Qısa fasilədən sonra Bakıdan, Bakı kəndlərindən, Xəzər dənizindən, Bakı neftindən “Erməni Dəhlizi” tələb edər. Əzizlərim, zamanında erməniyə yaşamağa, dövlət qurmağa yer vermişik və o da söz verib, özünü adam balası kimi aparacaq. Görün, adam balası olacağına söz verən erməni nələr törətdi? Adam balası da xeyirxahı olmuş xalqın yenicə doğulmuş uşağının göbəyinə zəhərli maddə bağlayıb öldürərmi?*** Adam balası da xeyirxahı olmuş xalqın azyaşlı balalarını boruya doldurub hər iki ucdan qaynaqlayarmı? Adam balası da xeyirxahı olmuş xalqın insanlarınının diri-diri gözlərini çıxardardıb yerinə duz doldurarmı? Adam balası da xeyirxahı olmuş xalqın ikicanlı qadınının qarnını yırtıb uşağını çıxardar yerinə patron, siqaret kötüyü, dəmir-dümür doldurarmı? Adam balası da xeyirxahı olmuş xalqın uşaqlarının dərisini türk-müsəlman uşaqlarına tətbiq eləmək üçün “Zori Balayansayğı üsulu” diri-diri soyarmı? Adam balası da xeyirxahı olmuş xalqın evladlarını bir dam altına yığaraq odlayıb yandırarmı? Adam balası da xeyirxahı olmuş xalqı qırıb onun soyqırımını törədərmi?.. Adam balası xeyirxahı olmuş xalqın tarixi abidələrini, məscidlərini, məzarlıqlarını dağıdıb yer üzündən silərmi? Adam balası da xeyirxahı olmuş xalqın varidatını talayarmı? Başında ağlı olan bir xalq başqa xalqa öz ərazisində terror törətmək məqsədi və başqa çirkin məqsədlərlə gəlməsi üçün “dəhliz” verməz. Verərsə, o xalq ölümə layiq xalqdır. Odur, nə dəhliz, nə filan... Erməniyə “dəhliz” vermək “ağrısız başımıza buz bağlamağımız” olardı, kişilər!?..

**D116. Erməni şişirdiciləri**

İndi elə zamandır, hər deyilən (həm başqalarının dediyi, həm də özünün) sözlərə diqqət yetirmək lazımdır. Ola bilir bir söz və ya bir sözün deyilişi vasitəsilə böyük bir dövlət sirri, olsun, adi sirr ötürülür. Həm də bizdə elə şəxslər olur, düşmənimiz, onun iqtisadi, siyasi, mənəvi, hərbi imkanları gerçəyə uyğun olmayıb şişirdilir. Elə götürək bizdə düşmənlərimizə aid münasibətləri. Azırbaycan hakimiyyətində erməni qohumları olanlar yox deyil. Bunu inkar eləmək də düzgün olmazdı. Belələrinin sıranışını (siyahı) dönə-dönə mətbuata çıxardan qeyrətlilərimiz olub. Sovetlər-bolşeviklər imperiyası dönəmində ruslarla, onların düşmənınə rəhimsizləri ilə qohumluq bağı olanlara yaxşı münasibət göstərilirdi. Ona görə də belələrindən bir çoxları ruslarla, ermənilərlə nigaha girirdilər. İndi bizim hökumətə onlardan bəzilərinin özləri, tələbələri, işçiləri, törəmələri bizim doğma hakimiyyətə düşə bilib. Bu isə o demək deyildir, Azərbaycanı ermənilər idarə edir. Erməniləri çox şişirtmək xeyirli iş deyil. Erməni deyərmi, Ermənistanı türk, ya da lap öz “dostu” olan rus, fars idarə edir?! Niyə deməz? Bəziləri şüursuzcasına, düşünmədən “Azərbaycanı ermənilər idarə edir” deyirlər. Bilmədən, korafəhmcəsinə ermənilərə xidmət edən müsəlmanları görəndə adamın yuxusu qaçır. Axı, “Eçmiadzin, Vazgen ermənisi” demir “farslardan başqa bütün müsəlmanlar mənim düşmənimdir”. Eçmiadzin, Vazgen ermənisi deyir “bütün müsəlmanlar mənim düşmənlərimdir”. Bu, erməni Eçmiadzini və Vazgeninin bütün ermənilərə keçdiyi təlimdir. Bu, bütün ermənilərin beyninə yeridilən erməni iradəsini, erməni düşüncəsini bildirən “Erməni Vazgenləri sözü”dür.

**D117.Sözdən zəhləsi gedən xalq**

***Paşinyan çox uzaq tarix demirəm, 2016-cı ilin aprelində Azərbaycanın kim olduğunu görüb. Mən həmişə mətbuatda demişəm: Rusiya Ermənistanın arxasında durmasa, Ermənistan təkcə Ağdam gənclərinə cavab verə bilməzlər. Bunları elə belə demirəm, doğrunu deyirəm. Paşinyan özü də bunu bilməkdə çətinlik çəkməz. Ancaq o, aldadılmış, şirnikləndirilmiş sadə erməni xalqına bunları deməkdə çətinlik çəkər. Bir də, aldatmaq üçün erməni xalqına o qədər yalan deyilib, görünür, hazırda özəllikcə sözdən onların zəhləsi gedir. Ancaq, burada maraqlı bir cəhət diqqətdən yanda qalmamalıdır: Paşinyanın savaş eşqinə düşməsində güddüyü məqsəd nədir? Bu məqsəd bizi qorxutma və bu kimi hədyanılar deyil. Paşinyan Uluslararası tədbirlərdə aldığı zərbələrdən də yaxşı bilir, biz savaş şəraitində olduğumuz halda savaş üçün indi-indi tədarük görməyimiz inanılan deyil. Paşinyanın savaş eşqinə düşməkdə m güddüyü məqsəd nədən ibarət ola bilər? 24.05.2020***

**D118.Əziz dostum**

22.02.2016.Əziz, sevgili dostum Ələsgər bəy! Doğum gününün münasibətilə səni təbrik edirəm! Doğum gününün mübarək! Səni səmimi insan, milləti, Vətəni yolunda canından keçməyə belə, hazır olmağa örnək göstərmiş, çox ədəbli, tərbiyəli, qayğıcıl, etibarlı bir insan, sədaqətli, səmimi dost kimi taniyiram. Sənə can sağlığı, uzun ömür, Vətən yolundakı böyük işlərinin bəhrəsini görmək, ailə səadəti, bir-birini əvəzləyən uğurlu günlər, qəlbincə olan həyat arzulayıram. Ələsgər Siyablını sevən dostu Bəhmən Sultanlı

**D119.Evladdan imtina**

“Evladdan imtina etmək” kimi əcaib, qoxunc bir dəhşəti heç zaman eşitməmişdim. Belə bir hərəkət ağlıma da gəlməzdi. Bu, nə deməkdir? İndi artıq bunun baş verdiyini eşidirəm. Bir müddət evladın gələcəyini düşünüb qürrələnəsən, toyunun arzusu ilə yaşayasan, baba (nənə) olacağını yada salıb şükranlıq edəsən, şəninə xoş sözlər deyəsən, özünü Allahın ən xoşbaxt bəndəsi sanasan, sonra da bu xoşbaxtlığından imtina edəsən?! Bu, dəhşətdir! Evladdan imtinanın məntiqi belədir: mən yaxşıyam evladım pis? Belə olurmu? Bu nə deməkdir? İnsan evladından imtina etməməlidir. İnsan evladının yanlışlarının nədənini özündə, öz davranışında, evladına verdiyi tərbiyədə axtarmalıdır, tapıb aradan qaldırmalıdır. “Mən yaxşıyam, evladım pis” fəlsəfəsi yanlış, ziyanlı, vecsiz fəlsəfədir. Bu, insanı irəli aparmayan, geriyə, bədbaxtlığa çəkən, məhvə aparan yanlış fəlsəfədir. Ataana insanlara üzünü tutub deyir: Ay insanlar, “Mən yaxşıyam, evladım pis!”. Sözsüz, valideyin evladından səbəbsiz imtina etmək fikrini dilinə də gətirməz. Evladın Ataananı o həddə gətirməyinin səbəbləri var. Bu səbəbləri evladla Ataana yanlışlarını anlama yoluyla aradan qaldıra bilər. Ataananın bir zamanlar evlad haqqındakı fikirlərini onun qayğıları, yolundakı əzabəziyyətlər, xoş niyyətlər, xoş arzular müşaiyət eləyib. Evladın bunları yada salmaması Allaha xoş gəlməz. Evladın ayağının daşa toxunması, işlərinin düz gətirməsi Allahın evlad nankorluğuna qəzəbinin acı bəhrəsidir.

**D120.Təmkinli narkoman**

Anayasada insanların etiraz etmək, rəy bildirmək, tələb etmək hüququ vardır. Bu hərəkətləri edənlər sırasında emosional, təmkinli, çılğın, yaxşı anlayan, pis anlayan adamlar olmamış deyil. Bunları narkoman adlandırmaq, onlara başqa cür adlar qoşmaq normal hal deyil. Adamların fikir bildirməsinə etiraz etməyə nə ad vermək olar? Bunların narkomasına nə ad vermək olar? Özəllikcə xalqın dərdlərini öz dərdi hesab eləyən deputat bunu edirsə. Amma etiraz tədbirində iştirak edən yüzlərlə adamın içkili olduğunu ağzına alan, ağlına gətirən şəxsin ayıq olduğuna heç cür inanmaq olmur. Adamın ağlına gəlir, elə adam varsa və özü də deputatsa, mütləq o deputatımız özü o sözü deyəndə içkili olub. Belə olmasaydı, elə söz deməyi o, özünə sığışdırmazdı. Axı millət vəkili millətin vəkilidir! Bu tədbirdə iştirak edənlər həmin deputatın seçiciləridir. Onlar doğrudan da içkili olublarsa, deməli, o deputatımızı seçəndə də içkili olublar. Bu, yaxşı hal sayıla bilməz!

**D121.Hüqonun təqaüdü**

***Bir zaman Kral Viktor Hüqoya təqaüd təyin edir. Viktor Hüqo bu təqaüddən imtina edir. Viktor Hüqo imtinasının səbəbini açıqlayarkən deyir: “Kralın təyin etdiyi bu təqaüd sərbəstliyin əl-qolunu bağlayan maddi yardımdan başqa bir şey deyildir. Reallıqda bu hədiyəni qəbul etmək müstəqil fəaliyyətdən imtina edib hökumət qarşısında öhdəlik götürmək deməkdir. Əslində, yazıçı hakimiyyətə müxalifətdə olmalıdır. Belə olan halda, namuslu yazıçı gərək hər şeydən öncə, pul haqq-hesabını kəssin. Ona görə də, mən öz təqaüdümdən imtina edirəm”. Eşq olsun Viktor Hüqoya! Bu sitatı istedadlı şairimiz Rasim Qaraca gətirib. Bu dəyərli sitatı ortaya çıxartdığı üçün sağ olsun Rasim Qaraca.***

(ardı gələn sayımızda)

